*Qərbi Kaspi Universiteti*
*Elmi Xəbərlər № 4, 2025*
*(Humanitar elmlər seriyası)*

*Western Caspian University*
*Scientific Bulletin № 4, 2025*
*(Humanities sciences series)*

**Afərin Əli ABBASOVA**
Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d.
E-mail:aferin.abbasova@wcu.edu.az
aferin_2012@hotmail.com

**Şaiq Allahyar ƏLİYEV**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail shaiqaliyev444@gmail.com

# CİNAYƏTİN NEYROPSİXOLOJİ SƏBƏBLƏRİ

**Xülasə**

Məqalədə cinayət davranışının neyropsixoloji əsasları, yəni beyin strukturlarının, neyrotransmitter sistemlərinin və hormonal mexanizmlərin insanın aqressiv və antisosial davranışlarına təsiri araşdırılır. Neyropsixoloji tədqiqatlar göstərir ki, bəzi hallarda cinayətkar davranış beynin funksional pozuntusu, frontal lob disbalansı və limbik sistemin hiperaktivliyi ilə əlaqədardır. Məqalədə həm bioloji, həm də sosial faktorların inteqrasiyasına əsaslanan biopsixososial model izah olunub.

**Açar sözlər:** cinayət davranışı, beyin, frontal lob, amiqdala, serotonin, impuls nəzarəti, aqressiya.

**UOT:** 159.91:343.95
**DOİ:** https://doi.org/10.54414/MMHS1582

## Giriş

Cinayətkar şəxsiyyət cinayət törətməyə meyilli olan və ya cinayət davranışı göstərən fərdin psixoloji, sosial və davranış xüsusiyyətlərinin məcmusudur. Bu anlayış təkcə törədilmiş cinayət faktını deyil, həmin davranışa gətirib çıxaran daxili motivləri, şəxsiyyət strukturlarını və psixodinamik mexanizmləri əhatə edir.

Cinayətkar şəxsiyyət, adətən, impulsivlik, aqressivlik, empatiya çatışmazlığı, məsuliyyətsizlik, aşağı özünənəzarət, riskə meyillilik və normativ dəyərlərə laqeyd münasibət kimi xüsusiyyətlərlə xarakterizə olunur. Belə şəxslərdə vicdan mexanizmləri zəif formalaşmış, superego funksiyası ya zəif, ya da təhrif olunmuş olur, nəticədə daxili qadağalar davranışı kifayət qədər tənzimləmir.

Cinayətkar şəxsiyyətin formalaşmasında uşaqlıq dövründə emosional məhrumiyyət, zorakılıq, valideyn nəzarətinin zəifliyi, travmatik təcrübələr, sosial təcrid və deviant mühit əsas risk faktorları hesab olunur. Bu faktorlar fərdin dünyanı təhlükəli və düşmən kimi qavramasına, güc və nəzarəti əsas dəyər kimi qəbul etməsinə səbəb ola bilər.

Cinayətkar şəxsiyyət anlayışı determinizm xarakteri daşımır, yəni bu xüsusiyyətlərə malik hər kəs mütləq cinayət törədəcək demək deyil. Psixoloji müdaxilə, sosial dəstək, psixoterapiya və reabilitasiya proqramları vasitəsilə davranış modellərinin dəyişdirilməsi mümkündür. Bu baxımdan cinayətkar şəxsiyyət həm risk, həm də dəyişilə bilən psixoloji konstruksiya kimi qiymətləndirilir.

Cinayət davranışının neyropsixoloji aspekti insanın bioloji və psixoloji mexanizmlərinin qarşılıqlı təsirini öyrənir. Əgər psixoloji motivlər fərdin dəyərləri və emosional strukturu ilə bağlıdırsa, neyropsixoloji səbəblər onun beyin fəaliyyətinin xüsusiyyətlərindən qaynaqlanır (1, s.15).

Neyropsixologiya göstərir ki, impulsiv, aqressiv insanlar və empatiya çatışmazlığı olan şəxslərin beyin fəaliyyətində fərqli neyrofizioloji göstəricilər müşahidə edilir. Xüsusilə, prefrontal korteksin zəif fəaliyyəti, amiqdalanın hiper

aktivliyi və serotonin səviyyəsinin azlığı cinayətkar davranışla sıx əlaqədardır (2, s.28).

Cinayətkar davranış yalnız “Pis niyyət” nəticəsi deyil, bəzən neyrobioloji disfunksiyanın məhsulu olur. Bu, cinayəti bəraətləndirmir, lakin onun mexanizmini daha dərindən izah edir. Müasir elmi yanaşmalar göstərir ki, bioloji və sosial amillər arasında sərhəd nisbidir: Əgər sosial mühit dəstəkləyici deyilsə, bioloji meyillər davranışa çevrilə bilər (3, s.41).

**Əsas mətn**

Cinayətkar şəxslərin tipologiyası cinayət davranışının motivləri, psixoloji xüsusiyyətləri, sosial adaptasiya səviyyəsi və davranışın davamlılığı əsasında formalaşdırılan elmi təsnifatdır. Bu tipologiya cinayətkarı etiketləmək məqsədi daşımır, əksinə onun davranış mexanizmlərini anlamağa, risk faktorlarını müəyyənləşdirməyə və profilaktik, eləcə də, reabilitasiya tədbirlərini planlaşdırmağa xidmət edir.

Motivlərinə görə cinayətkarlar müxtəlif qruplara ayrılır. Maddi qazanc yönümlü cinayətkarlar şəxsi maraq və fayda naminə oğurluq, dələduzluq və oxşar cinayətlər törədirlər. Zorakı cinayətkarlar aqressiya, qəzəb və güc ehtiyacı ilə hərəkət edərək fiziki zorakılığa üstünlük verirlər. Emosional affektiv cinayətkarlar ani emosional gərginlik və impulsivlik nəticəsində düşünülməmiş cinayətlər törədirlər. İdeoloji cinayətkarlar isə siyasi, dini və ya radikal inancları əsas motiv kimi qəbul edərək davranışlarını əsaslandırırlar.

Psixoloji xüsusiyyətlərinə görə cinayətkar şəxslər arasında antisosial psixopatik tip xüsusi yer tutur. Bu tip empatiya çatışmazlığı, vicdan zəifliyi və manipulyativ davranışla xarakterizə olunur. Nevrotik tipdə olan cinayətkarlarda daxili konfliktlər, narahatlıq və günahkarlıq hissi ön planda olur. Psixotik tipdə realığın qavranılması pozulur və cinayət davranışı sayıqlama və ya hallüsinasiyalarla əlaqəli ola bilər. Passiv asılı tipdə isə fərd, əsasən, güclü xarici təsir altında qalaraq qrupun və ya liderin təsiri ilə cinayət törədir.

Cinayət davranışının davamlılığına görə bəzi şəxslər situativ xarakter daşıyır və yalnız müəyyən şəraitin təsiri ilə cinayət törədir. Digər qrup təkrar cinayətkarlar olub cinayət davranışı onların həyat tərzinə çevrilir. Peşəkar cinayətkarlar isə cinayəti planlı şəkildə həyata keçirir və onu əsas fəaliyyət sahəsi kimi qəbul edirlər.

Sosial adaptasiya baxımından cinayətkarlar cəmiyyətə adaptasiyası zəif olan, sosial təcrid edilmiş və dəstəkdən məhrum şəxslərdən ibarət ola bilər. Eyni zamanda, cəmiyyətdə nüfuzlu mövqedə olan, lakin davranışını sosial maska altında gizlədən cinayətkarlar da mövcuddur.

Yaş və inkişaf səviyyəsinə görə yetkinlik yaşına çatmayan cinayətkarların şəxsiyyəti hələ formalaşma mərhələsində olduğundan onların reabilitasiya potensialı daha yüksək qiymətləndirilir. Yetkin cinayətkarlarda isə davranış modelləri daha sabit və davamlı xarakter daşıyır.

Beləliklə, cinayətkar şəxslərin tipologiyası cinayət davranışının psixoloji və sosial köklərini anlamağa imkan verən kompleks elmi yanaşma olub hüquqi psixologiya kriminologiya və profilaktik fəaliyyət üçün mühüm nəzəri baza yaradır.

**Beyin strukturlarının rolu**

Cinayət psixologiyası psixologiya elminin bir sahəsi olub cinayət törədən şəxslərin psixi xüsusiyyətlərini, davranış motivlərini, emosional vəziyyətlərini və sosial-psixoloji formalaşma proseslərini öyrənir. Bu sahə cinayətkar davranışın niyə, necə və hansı psixoloji mexanizmlər əsasında yarandığını izah etməyə çalışır.

Cinayət psixologiyasının əsas diqqət mərkəzində fərdin şəxsiyyət strukturu, uşaqlıq təcrübələri, travmalar, aqressiya səviyyəsi, empatiya çatışmazlığı, impulsivlik, vicdan və məsuliyyət anlayışlarının formalaşması dayanır. Buraya, həmçinin, ailə mühiti, sosiallaşma prosesi, mədəni faktorlar, stress, maddi çatışmazlıq, zorakılığa məruz qalma və psixi pozuntuların rolu da daxildir.

Cinayət psixologiyası cinayətkarın davranış nümunələrini, risk faktorlarını, təkrar cinayət ehtimalını və reabilitasiya imkanlarını qiymətləndirməyə imkan verir. Bu sahə hüquq-mühafizə orqanlarına cinayətlərin açılmasında, məhkəmə proseslərində psixoloji rəy verilməsində, penitensiar sistemdə islah proqramlarının hazırlanmasında və cinayətlərin

profilaktikasında mühüm elmi baza rolunu oynayır.

Qısaca, cinayət psixologiyası cinayəti təkcə hüquqi akt kimi deyil, insan psixikasının, daxili konfliktlərin və sosial təsirlərin məhsulu kimi araşdıran kompleks elmi yanaşmadır.

Cinayi davranış və beyin arasındakı əlaqə insan davranışının neyrobioloji əsaslarını izah edən mühüm elmi istiqamətlərdən biridir.Cinayi davranış təkcə sosial və psixoloji amillərin nəticəsi deyil, eyni zamanda, beynin struktur və funksional xüsusiyyətləri ilə sıx bağlıdır. Beyin fərdin impuls nəzarətini, emosional tənzimləməni, qərarvermə prosesini və sosial normalara uyğun davranışı idarə edən əsas orqandır.

Araşdırmalar göstərir ki, cinayi davranışla daha çox əlaqələndirilən beyin sahələri ön beyin payı, limbik sistem və amiqdaladır. Ön beyin payı, xüsusilə, prefrontal korteks davranışın planlaşdırılması, məsuliyyət hissi, nəticələri qabaqcadan görmə və impulsların cilovlanmasına cavabdehdir. Bu sahənin funksional zəifliyi və ya inkişaf pozuntusu olan şəxslərdə impulsivlik riskə meyillilik və aqressiv davranış daha çox müşahidə olunur.

Limbik sistem emosiyaların formalaşması və idarə olunmasında əsas rol oynayır. Amiqdalanın hiperaktivliyi qorxu, qəzəb və aqressiya reaksiyalarının artmasına səbəb ola bilər. Bu vəziyyət, xüsusilə, zorakı cinayi davranışlarda, emosional reaksiyaların və nəzarətsiz reaksiyaların artması ilə müşayiət olunur. Eyni zamanda, empatiya və vicdan hissinin neyrobioloji əsasları da bu sistemlə əlaqəlidir.

Neyrotransmitter balansının pozulması da cinayi davranışın formalaşmasında mühüm rol oynayır. Serotonin səviyyəsinin aşağı olması impulsiv aqressiya və özünənəzarətin zəifləməsi ilə əlaqələndirilir. Dopamin sistemindəki disfunksiya isə riskli davranışlara və ani mükafat axtarışına meyli artırır. Bu cür neyrokimyəvi dəyişikliklər, xüsusilə, antisosial davranış nümunələrində özünü göstərir.

Uşaqlıq dövründə yaşanan travmalar zorakılıq və xroniki stress beynin inkişafına birbaşa təsir edir. Bu təsirlər neyroplastiklik mexanizmləri vasitəsilə beynin strukturunu və funksional əlaqələrini dəyişdirərək gələcəkdə cinayi davranış riskini artırır. Beləliklə, beyin və mühit qarşılıqlı təsir göstərərək davranış modellərini formalaşdırır.

Cinayi davranış beyin fəaliyyətinin təkbaşına məhsulu deyil, lakin beynin struktur, funksional və kimyəvi xüsusiyyətləri bu davranışın yaranmasında əhəmiyyətli rol oynayır. Bu yanaşma cinayətin yalnız hüquqi deyil, eyni zamanda, neyropsixoloji fenomen kimi dəyərləndirilməsinə imkan yaradır və reabilitasiya ilə profilaktik tədbirlərin elmi əsaslarını gücləndirir.

1.Frontal lobun funksiyası- qərarvermə, impuls nəzarəti və əxlaqi dəyərlərin mərkəzidir. Bu sahənin zədələnməsi və ya zəif fəaliyyəti nəticəsində insan davranışını planlaşdırmaqda çətinlik çəkir, sosial qaydaları pozmağa meylli olur (4, s.22). Tədqiqatlar göstərir ki, çoxsaylı cinayətkarların EEG və MRT nəticələrində frontal korteks aktivliyinin normadan aşağı olduğu müəyyən edilmişdir (5, s.42). Bu fərdlər daha impulsiv qərarlar verir və nəticəni düşünmədən hərəkət edirlər.

2.Limbik sistem və amiqdala- Limbik sistem emosional reaksiyaların, xüsusilə, qorxu və qəzəbin mərkəzidir. Amiqdala bu sistemin əsas hissəsidir və aqressiv davranışların neyrobioloji tənzimləyicisidir (6, s.33). Amiqdalanın hiper aktivliyi, yəni həddindən artıq reaksiya verməsi fərdin qəzəbə qarşı nəzarətini zəiflədir. Bu vəziyyət antisosial şəxsiyyət pozuntusu, impulsiv zorakılıq və "Emosional partlayış"la müşahidə olunan cinayətlərdə tez-tez rast gəlinir.

3.Güzgü neyron sistemi və empatiya- Son illərdə aparılan neyropsixoloji tədqiqatlar göstərir ki, cinayətkar şəxslərdə güzgü neyron sisteminin aktivliyi aşağı olur (7, s.57). Bu neyronlar başqasının hisslərini "Görmək və hiss etmək" bacarığını təmin edir. Onların funksional zəifliyi empatiya çatışmazlığına gətirib çıxarır. Nəticədə fərd qarşısındakı insanın ağrısını hiss etmir və sosial məsuliyyət hissi zəifləyir.

**Neyrotransmitterlərin Rolu**

Serotonin- Serotonin impuls nəzarəti və emosional sabitliyin əsas neyromediatorudur. Serotonin səviyyəsi azaldıqda aqressiya və impulsivlik artır (8, s.64). Xüsusilə, zorakılıq törədən şəxslərdə beyin-omurilik mayesində

serotonin metabolitlərinin səviyyəsinin aşağı olduğu müəyyən edilmişdir.

Dopamin- Dopamin mükafat və motivasiya sisteminin mərkəzidir. Cinayətkar davranışlarda, xüsusilə, kleptomaniya və ya riskli davranış hallarında dopamin ifrazı qısamüddətli "Mükafat effekti" yaradır (9, s.38). Bu, davranışın təkrarlanmasına səbəb olur.

Kortizol və testosteron- Stress hormonu olan kortizolun uzunmüddətli artımı və testosteronun yüksək səviyyəsi aqressiv davranış riskini artırır. Testosteronun yüksək olduğu fərdlər daha dominant, rəqabətçi və riskli davranışlara meylli olurlar (10, s.49).

**Genetik və irsi amillər**

İrsiyyətin rolunu inkar etmək mümkün deyil. Monoamin oksidaza A (MAOA) geninin müəyyən variantları aqressiv və antisosial davranışla əlaqələndirilmişdir (11, s.53). "Aşağı aktiv MAOA" geninə malik şəxslərdə serotonin parçalanması ləng gedir, nəticədə impulsivlik artır.

Bununla belə, genetik meyllilik tək başına cinayət törətməyə səbəb olmur. Genetik baza yalnız sosial mühitlə qarşılıqlı təsirdə davranışa çevrilir. Uşaqlıqda zorakılığa məruz qalan və eyni zamanda MAOA aktivliyi aşağı olan fərdlərdə cinayətkarlığa meyl dörd dəfə çox olur (12, s.37).

**Biopsixososial modelin əhəmiyyəti**

Cinayət davranışının neyropsixoloji səbəblərini anlamaq üçün biopsixososial model əsas yanaşmadır (13, s.21). Bu modelə görə, beyin funksiyaları, psixoloji təcrübə və sosial mühit bir-birini tamamlayır. Məsələn, frontal korteks disfunksiyası olan bir fərd əgər sosial baxımdan stabil və empatik ailədə böyüyürsə, o, aqressiv meyilləri idarə etməyi öyrənə bilər. Əksinə, travmatik mühitdə tərbiyə alan və sosial dəstəyi olmayan fərdlərdə eyni neyrobioloji zəiflik cinayət davranışına çevrilir.

**Nəticə**

Neyropsixoloji tədqiqatlar cinayət davranışının sadəcə mənəvi və sosial deyil, həm də beyin əsaslı fenomen olduğunu sübut edir. Frontal lob disfunksiyası, amiqdala hiper aktivliyi, serotonin disbalansı və genetik meyllilik cinayət davranışının neyrobioloji əsaslarını təşkil edir. Lakin bioloji determinantlar davranışın yeganə səbəbi deyil, onlar sosial və emosional amillərlə birgə fəaliyyət göstərir. Buna görə də cinayətin qarşısının alınması strategiyaları yalnız cəza mexanizmlərinə deyil, həm də psixoloji və neyroreabilitasiya proqramlarına əsaslanmalıdır.

Aparılmış neyropsixoloji təhlillər göstərir ki, cinayət davranışı təkcə sosial və ya hüquqi müstəvidə izah edilə bilən hadisə olmayıb insan beyninin struktur, funksional və neyrokimyəvi xüsusiyyətləri ilə sıx şəkildə əlaqəlidir. Cinayət davranışının formalaşması prosesi beyində qərarvermə impulsların tənzimlənməsi, emosional reaktivlik və sosial nəticələrin qiymətləndirilməsi kimi əsas mexanizmlərin pozulması fonunda baş verir. Bu baxımdan cinayət aktı çox zaman şüurlu rasional seçimdən daha çox neyrobioloji disbalansın davranış müstəvisində təzahürü kimi çıxış edir.

Araşdırmalar sübut edir ki, xüsusilə, prefrontal korteksin funksional zəifliyi cinayət davranışının neyropsixoloji əsas mexanizmlərindən biri hesab olunmalıdır. Prefrontal sahələr planlaşdırma, gələcək nəticələrin proqnozlaşdırılması, impulsların ləngidilməsi və sosial normalara uyğun davranışın tənzimlənməsində aparıcı rol oynayır. Bu sahələrin yetərincə aktiv olmaması fərdin ani impulslar əsasında qərar qəbul etməsinə, aqressiv reaksiyaları cilovlaya bilməməsinə və empatiya bacarığının zəifləməsinə səbəb olur. Nəticə etibarilə, hüquqazidd və cinayət xarakterli davranışlar üçün neyrobioloji zəmin formalaşır.

Limbik systemin, xüsusilə, amiqdalanın hiperaktivliyi qorxu aqressiya və təhlükə qavrayışının patoloji səviyyədə güclənməsinə gətirib çıxarır. Bu isə fərdin ətraf mühiti daimi təhlükə mənbəyi kimi dərk etməsinə və müdafiə xarakterli aqressiv davranış modellərini seçməsinə səbəb olur. Cinayət davranışında müşahidə edilən həddindən artıq aqressiya, qəddarlıq və emosional nəzarətsizlik limbik sistem və prefrontal korteks arasında balansın pozulması ilə izah olunur.

Neyrotransmitter sistemlərindəki pozuntular da cinayətin neyropsixoloji səbəbləri sırasında xüsusi yer tutur. Serotonin səviyyəsinin aşağı olması, impulsivlik aqressivlik və riskli davranışların artması ilə birbaşa əlaqəlidir.

Dopamin sistemindəki disfunksiya isə mükafat axtarışı, həzzə yönəlik davranışların nəzarətsiz şəkildə güclənməsi və normativ çərçivələrin pozulması ilə müşayiət olunur. Bu neyrokimyəvi dəyişikliklər cinayətkar davranışın təkrarlanmasına və sabit davranış modelinə çevrilməsinə şərait yaradır.

Erkən uşaqlıq dövründə yaşanan psixotravmatik təcrübələr beynin struktur və funksional inkişafına birbaşa təsir göstərir. Xroniki stress, zorakılıq, emosional laqeydlik və təhlükəsiz bağlanmanın formalaşmaması hipotalamo- hipofizar- adrenal oxun davamlı aktivləşməsinə səbəb olur. Bu isə stress hormonlarının beyinə toksik təsiri nəticəsində emosional tənzimləmə və impuls nəzarətinə cavabdeh strukturların zəifləməsi ilə nəticələnir. Beləliklə, cinayət davranışı sonradan yaranan təsadüfi hadisə deyil, erkən neyropsixoloji inkişafın pozulmasının davamı kimi formalaşır.

Neyropsixoloji baxımdan empatiya çatışmazlığı cinayətkar şəxsiyyətin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Empatiya ilə əlaqəli neyron şəbəkələrinin, xüsusilə, güzgü neyron sisteminin və medial prefrontal sahələrin zəif fəaliyyəti başqalarının ağrısını emosional olaraq dərk etmə qabiliyyətini azaldır. Bu isə cinayət törədən şəxsin qurbanla emosional identifikasiya qura bilməməsinə, vicdan mexanizmlərinin zəifləməsinə və əxlaqi məsuliyyət hissinin itirilməsinə səbəb olur.

Nəticələr onu göstərir ki, cinayət davranışı çox zaman patoloji impulsivlik fonunda baş verir və bu impulsivlik yalnız iradə zəifliyi ilə deyil, beynin neyrofizioloji mexanizmlərindəki pozuntularla şərtlənir. Xüsusilə, icraedici funksiyaların zəif inkişafı diqqətin paylanması, qərarların ardıcıllığının qurulması və davranışın nəticələrinin qiymətləndirilməsi proseslərini pozur. Bu isə cinayətin ani emosional partlayış formasında reallaşmasına zəmin yaradır.

Genetik meyllilik faktorları da neyropsixoloji risk kontekstində nəzərə alınmalıdır. Müəyyən genetik variasiyalar neyrotransmitter sistemlərinin fəaliyyətinə təsir göstərərək aqressivlik. impulsivlik və emosional stabillik səviyyəsini müəyyən edir. Lakin genetik faktorlar heç vaxt təkbaşına cinayət davranışını izah etmir. Onlar yalnız əlverişsiz psixososial mühit və travmatik təcrübələrlə birləşdikdə patoloji davranışın ortaya çıxmasına şərait yaradır.

Müasir neyropsixoloji yanaşmalar cinayəti cəza yönümlü deyil, daha çox reabilitasiya yönümlü perspektivdən qiymətləndirməyi zəruri edir. Beyin plastisiyası faktoru göstərir ki, neyropsixoloji müdaxilələr psixoterapiya, neyrofeedback, emosional tənzimləmə təlimləri və travma yönümlü terapiyalar vasitəsilə cinayətkar davranış modellərinin dəyişdirilməsi mümkündür. Bu isə cinayətlə mübarizədə yalnız hüquqi deyil, multidissiplinar yanaşmanın vacibliyini ön plana çıxarır.

Yekun olaraq qeyd etmək olar ki, cinayətin neyropsixoloji səbəbləri insan davranışının dərin bioloji və psixoloji qatlarında formalaşır və bu səbəblərin nəzərə alınmaması cinayət hadisələrinin mahiyyətinin natamam anlaşılmasına gətirib çıxarır. Cinayətkar davranış nə irsi olaraq dəyişməz, nə də yalnız sosial mühitin məhsuludur. O, beynin inkişafı, emosional tənzimləmə mexanizmləri, neyrokimyəvi balans və erkən həyat təcrübələrinin qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb neyropsixoloji fenomendir. Bu baxımdan cinayətin qarşısının alınması və təkrar cinayətlərin azaldılması üçün neyropsixoloji biliklərə əsaslanan elmi və praktik yanaşmalar xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT SİYAHISI

1.Gazzaniga, M. S. The Cognitive Neurosciences. MIT Press, 2009.

2.Raine, A. The Anatomy of Violence: The Biological Roots of Crime. Random House, 2013.

3.Blair, R. J. R., Mitchell, D., & Blair, K. The Psychopath: Emotion and the Brain. Blackwell, 2005.

4.Damasio, A. Descartes’ Error: Emotion, Reason, and the Human Brain. Penguin, 1994.

5.Brower, M. C., & Price, B. H. “Neuropsychiatry of frontal lobe dysfunction in violent and criminal behaviour.” Journal of Neurology, Neurosurgery & Psychiatry, 2001.

6.LeDoux, J. The Emotional Brain. Simon & Schuster, 1996.

7.Rizzolatti, G., & Sinigaglia, C. Mirrors in the Brain. Oxford University Press, 2008.

8.Coccaro, E. F. “Central serotonin and impulsive aggression.” British Journal of Psychiatry, 1989.

9.Volkow, N. D. et al. “Dopamine in drug abuse and addiction.” Nature Reviews Neuroscience, 2004.

10.Archer, J. The Influence of Testosterone on Human Aggression. British Journal of Psychology, 2006.

11.Caspi, A. et al. “Role of genotype in the cycle of violence in maltreated children.” Science, 2002.

12.Tiihonen, J. et al. “Genetic background of extreme violent behavior.” Molecular Psychiatry, 2015.

13.Moffitt, T. E. The Development of Antisocial Behavior: A Biosocial Perspective. Cambridge University Press, 2005.

**Aferin Ali ABBASOVA**
Western Caspian University,
Associate Professor of the Department of Psychology and Social Work, Ph.D. in Psychology
E-mail:aferin.abbasova@wcu.edu.az
aferin_2012@hotmail.com

**Shaiq Allahyar ALİYEV**
Western Caspian University,
Department of Psychology and Social Work, Master's student,
E-mail:shaiqaliyev444@gmail.com

## NEUROPSYCHOLOGİCAL CAUSES OF CRİME

**Summary**

The article explores the neuropsychological foundations of criminal behavior, focusing on how brain structures, neurotransmitter systems, and hormonal mechanisms influence aggression and antisocial actions. Neuropsychological studies demonstrate that criminal tendencies may result from functional abnormalities in the brain, such as frontal lobe dysfunction and limbic hyperactivity. The paper also presents the biopsychosocial model integrating biological, psychological, and social determinants of crime.

**Keywords:** criminal behavior, brain, frontal lobe, amygdala, serotonin, impulse control, aggression.

**Афарин Али Аббасова**
Западно-Каспийский университет, доцент кафедры психологии и социальной работы,
кандидат психологических наук. по психологии.
E-mail:aferin.abbasova@wcu.edu.az
aferin_2012@hotmail.com

**Шаиг Аллахьяр АЛИЕВ**
Западно-Каспийский университет,
магистрант, кафедра психологии и социальной работы
E-mail: shaiqaliyev444@gmail.com

## НЕЙРОПСИХОЛОГИЧЕСКИЕ ПРИЧИНЫ ПРЕСТУПЛЕНИЯ

**Резюме**

В статье рассматриваются нейропсихологические основы преступного поведения влияние структуры мозга, нейротрансмиттерных систем и гормональных механизмов на агрессию и антисоциальные действия. Нейропсихологические исследования показывают, что склонность к преступному поведению может быть связана с функциональными нарушениями в мозге, особенно с дисфункцией лобных долей и гиперактивностью лимбической системы. Представлена биопсихосоциальная модель преступности.

**Daxil olub:** 27.11.2025